Azərbaycan.- 2021.- 17 aprel. S. 6.

# İçərişəhərin "Gülüş parkı"









**Hətta onun özünü gördükdə belə müasirləri gülürmüş. Sanki çəkdiyi karikaturaların xarakter cizgiləri nəinki yaradıcılığına, damarlarında axan qanı ilə cisminə də yayılmışdı, simasında istehza, təbəssüm doğuracaq ifadələr sayrışdığını da söyləyənlər vardı. Məşhur "Ulduz" filmində daha çox yaddaqalan obraz olan Məhəmmədə də oxşadırdılar.**

Söhbət Azərbaycan karikatura sənətinin banisi Əzim Əzimzadədən gedir. Maraqlıdır ki, bu böyük sənətkarın rəssamlıq təhsili olmayıb. O, bu sənəti özü öyrənib. Lakin onun yaradıcılıq irsi dəzgah vərəqələri, kitab illüstrasiyaları, satirik jurnal və qəzet rəsmləri, geyim və dekorasiya eskizləri, həmçinin siyasi karikaturalardan ibarətdir.

Rəssamın yaradıcılığının əsas hissəsini plakat janrı təşkil edir. Plakatlarında həyatdan götürülən canlı və konkret obrazlar təsvir olunur. Bununla belə, Ə.Əzimzadənin yaradıcılıq irsində karikaturalar xüsusi yer tutur. Azərbaycanda bu janrın formalaşması "Molla Nəsrəddin" jurnalı ilə bağlıdır. Ə.Əzimzadə həmin jurnalın baş rəssamı idi. O, gülüş hədəfi seçdiyi obrazların mimika və hərəkətlərini çox dəqiq və ustalıqla təsvir edirdi.

M.Ə.Sabirin "Hophopnamə"sinə 56 rəngli litoqrafiya çəkmiş Ə.Əzimzadə Cəlil Məmmədquluzadənin və Əbdürrəhim bəy Haqverdiyevin əsərləri, həmçinin xalq nağılları üçün də eyni üslubda rəsmlər silsiləsi yaratmışdı.

Ölməz karikatura ustasının məişət mövzusunda çəkilmiş "Kos-kosa", "Tonqaldan atlanırlar", "Mirasın bölüşdürülməsi", "Kəndirbaz", "Varlı evində toy", "Kasıb evində toy" akvarelləri həmin dövrün adət-ənənələrini obrazlı şəkildə əks etdirir.

Ə.Əzimzadənin yaradıcılığı nəsillər dəyişdikcə yaddaşlara yazılır, sevilir, dünəndən bu günə və sabaha yol başlayır.

Böyük karikaturaçı rəssamın əsərləri hətta "heykəl"ləşib, qranitləşib, daş yaddaşa da hopub. Paytaxt Bakının ən görməli və görkəmli məkanı sayılan İçərişəhərdə də Əzim Əzimzadənin əsərlərinə dərin rəğbətin şahidinə çevrilmək mümkündür. İçərişəhərin dar dalanlarından və daş küçələrindən keçib rəssamın karikaturalarının burada "daşa-dəmirə dönməsi"ni gördükdə heç kim təəccüblənmir, əksinə, üzlərdə xoş təbəssüm dolaşır, dodaqlara gülüş qonur.

Həmin istirahət məkanını "Gülüş parkı" adlandıranlar da var. Bura yolu düşənləri ustad rəssamın postament üstündəki büstü və yaradıcılığından bəhs edən karikaturalardan bəzilərinin tunc və misdən hazırlanmış rəsm nümunələri qarşılayır. Daim qonaq-qaralı olan park əsl istirahət yeridir. Çünki buradan ancaq xoş ovqatla ayrıla bilərsən. Bir sözlə, rəssamın dili ilə desək, "Köhnə Bakının tipləri" ilə tanış olmaq istəyənlər yolunu buradan salır...

***M.NƏRİMANOĞLU,***
***İ.BABAYEV (foto),***
***"Azərbaycan"***